Yaxşılıq: gözəl əxlaqdır. Günah isə qəlbini narahat edən və insanların bilməsini istəmədiyin şeydir

Nəvvas bin Siman (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (səlləllahu aleyhi va səlləm) belə demişdir: "Yaxşılıq: gözəl əxlaqdır. Günah isə qəlbini narahat edən və insanların bilməsini istəmədiyin şeydir". Vabisə bin Mə'bəd (Allah ondan razı olsun) belə demişdir: Bir gün mən Rəsulullahın (səlləllahu aleyhi va səlləm) yanına gəldim və O, məndən soruşdu: "Sən yaxşılıq və günah barəsində soruşmağa gəlmisən?". Mən: “Bəli!” – deyə cavab verdikdə, Rəsulullah (səlləllahu aleyhi va səlləm) belə buyurdu: "(Bunu) Qəlbindən soruş! Yaxşılıq, insanın nəfsinin rahatlıq tapdığı və qəlbinin arxayın olduğu şeydir. Günah isə, nəfsində tərəddüd doğuran və sinəndə narahatlıq yaradan şeydir, hətta insanlar sənə (onun doğru olduğunu) təkrar-təkrar desələr də belə".

[الحديث الأول: رواه مسلم، والحديث الثاني: رواه أحمد والدارمي] [Səhih]

Peyğəmbər (səlləllahu aleyhi va səlləm) bu hədisdə yaxşılıq və günah barəsində xəbər vermiş və belə buyurmuşdur: Yaxşılığın ən böyük xüsusiyyəti gözəl əxlaqa sahibi olmaqdır. Bu Allahla münasibətdə təqva ilə və insanlarla münasibətdə isə onların əziyyətlərinə səbr etmək, az qəzəblənmək, gülərüz olmaq, gözəl sözlər söyləmək, qohumluq əlaqələrini saxlamaq, Uca Allaha itaət etmək, nəzakətli olmaq, insanlara yaxşılıq etmək, ailə və dostlarla gözəl münasibətdə olmaqla baş verir. Həmçinin Peyğəmbər (səlləllahu aleyhi va səlləm) əlavə etdi ki, yaxşılıq qəlbin və nəfsin rahatlıq tapdığı şeydir. Amma günah isə şübhəli şeylərdən qəlbi narahat edən, insanın köksündə tərəddüd və qəlbdə şəkk yaradan, həmçinin onun günah olması ehtimalı ilə insanı qorxuya salan və onun görkəmli, nümunəvi və yüksək əxlaqa sahib olan insanların gözündə çirkin görünəcəyindən dolayı üzə çıxmasını istəmədiyi şeydir. Çünki insan nəfsi, təbiət etibarı ilə başqalarının onun yaxşı əməllərini bilməsini istəyir. Əgər insan nəfsi bəzi əməllərinin başqaları tərəfindən bilinməsini istəmirsə, bu, həmin əməlin günah olduğunu göstərir və o əməldə heç bir xeyir yoxdur. İnsanlar sənə (bir işin icazəli olduğuna) fətva versələr belə, əgər qəlbində şübhə əlamətləri dolaşmağa davam edirsə, onların fətvasını qəbul etmə. Çünki şübhə əsaslı və doğru, fətva verən isə elmsiz olarsa, verilən fətva şübhəni aradan qaldıra bilməz. Əgər verilən fətva şəri dəlilə əsaslanırsa, o zaman fətva alan şəxsin, hətta qəlbi rahat olmasa belə, bu fətvaya tabe olması vacibdir.

http://www.sunnah.global/hadeeth/az/show/66540